# A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I

## BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

## S Ə R Ə N C A M I

№ 91 "25" Apel 2016-cı il

**Binəqədi rayonunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93 illiyi münasibətilə "Gül bayramı"nın keçirilməsi haqqında**

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Onlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yaddaşlara yazılmış və əbədiyaşarlıq qazanmışlar.

Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir insanda birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Bu gün ölkəmiz Heydər Əliyev siyasətinin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır, onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

"Müstəqil Azərbaycan Dövlətinin banisi və qurucusu, Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyevin anadan olmasının 93 illiyi münasibətilə Gül bayramının keçirilməsi haqqında" Bakı Şəhər İcra Hakimiyyəti başçısının 148 nömrəli 13 aprel 2016-cı il tarixli Sərəncamını və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** 10 may 2016-cı il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyi münasibətilə ümumrayon Gül bayramı tədbirinin keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

**2.** Gül bayramına hazırlıq və onun keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri:**

| | |
|---|---|
| - İlqar Süleymanov | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Təşkilat Komitəsinin üzvləri:**

| | |
|---|---|
| - Vüsar İsmayılov | Rayon İcra Hakimiyyəti başçısının müavini |
| - Ramiz Göyüşov | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| - Elman Dadaşov | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| - Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| - Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| - Elşad Rəhimov | Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən |
| - Elnur İmanov | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| - Qüdsi Bayramov | Rayon Gənclər və İdman İdarəsinin rəisi |
| - Oqtay Süleymanlı | Rayon Polis İdarəsinin rəis müavini |
| - Azər Məmmədov | Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyinin rəisi |
| - Maşallah Məmmədov | Binəqədi Rayon Yaşıllaşdırma İdarəsinin rəisi |

**3.** Təşkilat Komitəsinə tapşırılsın ki, Gül bayramında rayonun yol kənarlarında park və xiyabanlarında idarə, müəssisə, təşkilatların, təhsil müəssisələrinin, bələdiyyələrin və ictimaiyyət nümayəndələrinin bacarıq və istəklərinə uyğun güllərin və gül-kol bitkilərinin əkilməsinə zəruri şəraitin yaradılmasını təmin etsin.

**4.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Xaləddin İsgəndərov**

№____

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**